Tədbirdə fövqəladə hallar naziri, general-polkovnik Kamaləddin Heydərov, təhsil naziri Mikayıl Cabbarov, gənclər və idman naziri Azad Rəhimov, UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark Herevard, FHN-in müvafiq strukturlarının rəhbərləri və məktəblilər iştirak etmişlər.

Əvvəlcə tədbir iştirakçıları müsabiqəyə təqdim olunmuş əl işlərinin sərgisi ilə tanış olmuşlar.

Məlumat verilmişdir ki, respublikanın bütün şəhər və rayonlarının ümumtəhsil məktəblilərinin iştirak etdikləri müsabiqəyə "Rəsm", "Plakat", "əl işi", "Yumşaq oyuncaq", "Yanğın qəza-xilasetmə texnikasının modeli", "Şeir" nominasiyaları üzrə işlər təqdim olunmuşdur.

Müsabiqənin məqsədi uşaqlarda təhlükəsiz həyat fəaliyyəti mədəniyyətinin formalaşdırılması, ictimaiyyətin diqqətinin fövqəladə hallar probleminə cəlb edilməsi, yetişməkdə olan nəslin vətənpərvər ruhda tərbiyə edilməsi, eləcə də istedadlı uşaqların üzə çıxarılmasıdır.

***AzərTAc***